AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin

F-386 nömrəli 28.08 2020-ci il

tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ... ŞÖBƏSİ ... NAZİRLİYİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİATSƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

İxtisasın (proqramın) şifri və adı: 050807–Sosial iş

BAKI – 2020

## BAKALAVRİAT SƏVİYYƏSİNİN "050807-SOSİAL İŞ"İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050807– Sosial iş** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun kompetensiyaları

2.1. *Təhsil Proqramının sonunda məzunaşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:*

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirməkvə tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirməkvə özünütənqid bacarığına.

2.2. ***Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- sosial işin metodoloji əsaslarını bilmək, əsas anlayışları mənimsəmək;
- sosial işin elmi tədqiqat metodlarını tətbiq etməyi bacarmaq;
- sosial işin əsas nəzəriyyələrini və konsepsiyalarının inkişafının müasir tendensiyalarını bilmək;
- sosial işin bir elm sahəsi kimi səciyyəsi və predmetini bilmək;
- sosial işin müasir vəziyyətini, tədqiqat istiqamətlərini, ümum-metodoloji aspektlərini dərk etmək;
- müxtəlif yaş qruplarına malik insanlarla sosial işin xüsusiyyətlərini bilmək və onu tətbiq etməyi bacarmaq;
- müxtəlif metodlarla müştərinin fərdi-psixoloji xüsusiyyətlərini qiymətləndirməyi bacarmaq;
- müştərinin vəziyyətini düzgün təsəvvür etməyi, onun göstəricilərini qiymətləndirməyi və sosial işi həyata keçirmək üçün proqnozlar verməyi bacarmaq;
- sosial qrupların tədqiqinin metodoloji məsələləri, qruplar-arası münasibətlərin idarə olunmasının psixoloji məsələlərini bilmək;
- fərdlər, ailələr, qruplar, təşkilatlar və icmalarla işdə müdaxiləni təşkil etməyi bacarmaq;
- sosial problemlərin xüsusiyyətlərinin aşkar edilməsi üçün tədqiqat hazırlamağı və həyata keçirməyi bacarmaq;
- müxtəlif proqramlardan istifadə edərək informasiya toplaya və sonra bu informasiyanı emal etməyi bacarmaq;
- insan davranışına təsir etmək üçün fəaliyyət planı hazırlaya bilmək;
- müxtəlif yaş dövrlərində şəxsiyyətin formalaşmasının xüsusiyyətlərini bilmək;
- sosial layihələr hazırlamağı , onları qiymətləndirməyi bacarmaq;
- sosial yardım və müavinətləri meyarlara uyğun təyin edə və hesablaya bilmək;
- sosial yardım agentliyinin idarəedilməsi prinsip, qayda və metodlarını bilmək;
- fiziki və psixi məhdudiyyətləri olan insanlarla işləməyi bacarmaq;
- kliyentlərin sosial xidmətləri əldə etməsi üçün müvəkkillik edə bilmək;
- prinsipial qərarlar qəbul etmək üçün etik əsaslandıma strategiyalarını tətbiq edə bilmək;
- sosial ədalətli planlaşdırma və müdaxilələrin inkişafına rəhbərlik etmək üçün kliyent qrupunun təzyiq, ayrı-seçkilik və tarixi travma təsirləri haqqında biliklərdən istifadə edə bilmək;
- yardım prosesində aydın və rasional məqsədlər formalaşdırmaq üçün kliyent ilə səmərəli ünsiyyət qura və əməkdaşlıq edə bilmək;
- diaqnozu hərtərəfli bio-psixo-sosial-mənəvi qiymətləndirmə kontekstində anlaya və onların kilyentlərə təsirlərini araşdırmağı bacarmaq;
- əhalinin yardıma ehtiyacı olan müxtəlif qrupları ilə işlədikdə müvafiq yerli, dövlət və beynəlxal qanunvericilikdən istifadə edə bilmək;
- peşəkar xidmət göstərmək üçün ən yeni bilik və müdaxilə modellərini öyrənib, tətbiq edə bilmək;
- çoxsaylı bilik mənbələrini, yəni empirik / tədqiqat dəlilləri, təcrübədən irəli gələn bilik bazası, kliyentin verdiyi məlumatlar töhfəsi və / və ya kontekstual amilləri istifadə edə bilmək;
- kliyentlərin maraqlarının təmin olunması üçün danışıqlar apara bilmək və mediasiyanı reallaşdırmağı bacarmaq;
- sosial, iqtisadi və ekoloji ədalət anlayışlarını fərdi və sistem səviyyələrində insan hüquqlarını müdafiə etmək üçün tətbiq edə bilmək;
- yüksək riskli terapevtik qrup işini superviziya vasitəsilə fasilitasiya edə bilmək;
- fövqəladə hallarda heyətin fəaliyyətini, mülki müdafiə üzrə məşğələlərə hazırlığın metodikasını bilmək;

- müasir qırğın vasitələri ilə zədələnmişlərə ilkin tibbi yardım göstərməkdə, bakterioloji zədələnmə ocaqlarında epidemiya əleyhinə tədbir tətbiq etməkdə vərdişlər aşılanmasını və s. bilmək.

## 3. Təhsil Proqramının strukturu

3.1. Təhsil Proqramı240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fenn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasındasiyasi,ideoloji,iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fenn cərçivesində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fenn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | |
| 4.1 | Müasir təbiətşünaslıq konsepsiyası<br>Müasir dövrün sosial problemləri<br>Genderə giriş<br>Multukulturalizmə giriş<br>Fəlsəfə<br>Politologiya<br>Məntiq | 3 |
| 4.2 | İqtisadiyyat<br>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>İnsan hüquqları | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | ***Sosial işdə riyazi metodlar***<br>Bu fənni tələbələrin riyazi metodları sosial işə tətbiq edə bilməsinə yardımçı olacaqdır. Bu fənn analitik bacarıqların formalaşması, gələcəkdə tədqiqatın keçirilməsi və xüsusilə ölçmə və təhlil məsələləri ilə bağlı bilik və bacarıqların formalaşması və inkişafı istiqamətində vacib yer tutur. Bu kursun tədrisi nəticəsində tələbələr cəmiyyətdə gedən proseslərə riyazi elminin apparatının tətbiqi ilə bağlı təməl biliklərə yiyələnir. | 4 |

| | | |
|---|---|---|
| 6 | ***Sosiologiya***<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | 4 |
| 7 | ***İnformatika***<br>İnformatika - kompyuterlərdən və şəbəkələrdən, xüsusən İnternetdən istifadə etməklə bağlı olan yeni fənn və yeni informasiya sənayesi sahəsidir. "İnformatika" fənn və elmi istiqamət kimi kompyuterlərin köməyi ilə informasiyanın yığılması, emalı və ötürülməsinin metod, prinsip və qanunlarını öyrənir. İnformatika kompyuterləşdirilmiş informasiya sistemlərinin fəaliyyətinin layihələşdirilməsinin, işlənilməsinin, yaradılmasının, səmərəliliyininqiymətləndirilməsinin, onun müxtəlif sahələrdə tətbiqinin və təsirinin bütün aspektlərini öyrənən kompleks elmdir. Müasir dünyanı və elmi informatikasız təsəvvür etmək mümkün deyil. İnformasiya texnologiyaları dəlil əsaslı biliyin öyrənilməsi, onun axtarılması, ötürülməsi üçün əvəzsiz rol oynayır. | 4 |
| 8 | ***Psixologiya***<br>Psixologiya fundamental psixoloji bilikləri özündə cəmləşdirir.Psixologiya elmi psixi proseslər, psixi hallar (və ya psixi halətlər, vəziyyətlər)və psixi xassələr (və ya xüsusiyyətlər) barədə məlumatlar təqdim edir. Psixologiya elminin fundamental və ya baza sahələri psixologiyanı və insanların davranışını kimliyindən və hansı fəaliyyət sahəsində çalışmasından asılı olmayaraq hamının başa düşəcəyi şəkildə şərh etməyə yönəldilmiş sahələrdir. Psixologiya fənni tələbələrə insanın psixikası barədə ilkin biliklər təqdim edir. | 4 |
| 9 | ***Neyrobiologiya***<br>Neyrobiologiya sinir sisteminin və beynin necə işlədiyini öyrənən elm sahəsidir. Burada sistemi, beyin funksiyası və onurğa beyni kimi əlaqəli strukturları araşdırılır. Neyrobiologiya həm fiziologiyanın, həm də nevrologiyanın bir alt hissəsidir.Neyrobioloji tədqiqatlar şəxsiyyətə, duyğulara, mühakiməyə, problem həllinə, mücərrəd düşüncəyə, diqqətə və planlaşdırmaya töhfə verməklə rol oynayır. | 4 |
| 10 | ***Sosial işə giriş***<br>Sosial işə giriş fənni tələbərəixtisa barədə təməl biliklər təqdim edir. Onlara sosial işin prinsip, kateqoriya, anlayışları barədə məlumatlandırır. Sosial işin müxtəlif istiqamətləri, peşə sahələri izah olunur. Ümumiyyətlə ixtisasla tanışlıq məqsədini daşıyır və kurs barədə ümumi məlumatları əks etdirir. | 6 |
| 11 | ***Sosial iş təcrübəsində etik prinsiplər***<br>Sosial işçinin peşə fəaliyyətindən asılı olmayaraq fəaliyyətində rəhbər tutduğu dəyərlər izah olunur. Onun fəaliyyətini tənizmləyən standartlar, normalar, prinsiplər, qaydalar təqdim edilir. Etik prinsiplərin mənimsənilməsi sosial işçinin peşəkar fəaliyyət göstərməsinə zəmin yaradır. | 6 |
| 12 | ***Sosial işin nəzəriyyəsi və təcrübəsi***<br>Fənnin nəzərriyəsinin öyrənilməsi ixtisasən elmi əsaslarının dərki üçün önəmlidir. Peşəkar sosial işçi müxtəlif nəzəriyyələritətbiq edərək problemlərin səbəbini müəyyən edir və müvafiq müdaxilələr tətbiq edirlər. İnsan davranışını, davranışda deviasiyanı müəyyən etməyin ən effektiv yolu | 11 |

| | | |
|---|---|---|
| | nəzəriyyədir. Təcrübə isə bütün biliklərin real həyat şəraitlərində tətbiq olunmasını təmin edir. Yardımın peşəkarlıq səviyyəsini müəyyən edir. | |
| 13 | ***Sosial statistika***<br>Bu fənni öyrənməklə sosial hadisələrin qarşılıqlı əlaqə və asılılıqlarını müəyyən etmək, onun inkişaf dinamikasını öyrənmək, müqayisəliliyi təmin etmək, nəhayət, respublika və regional miqyasda mühüm sosial-iqtisadi qərarlar qəbul etmək mümkün olur. Sosial statistikanı öyrənmək nəticəsində tələbələr statistik məlumatların toplanması prinsiplərini, onların işlənməsi qaydalarını, sosial hadisə və proseslərin tədqiqatının aparılması, müxtəlif əlamətə malik sosial hadisələrə müvafiq ümumiləşdiricigöstəricilərinmüəyyənləşdirilməsi və hesablanması üsullarını öyrənir, nəzəri biliklərə yiyələnməklə sərbəst tədqiqat işləri aparmaq vərdişləri əldə edirlər. | 4 |
| 14 | ***Sosial proqramlar və xidmətlər***<br>Sosial siyasəti reallaşdırmaqüçün dövlət müxtəlif proqramlar və xidmətlər tətbiq edir. Sosial proqramlar və xidmətlər əhalinin sosial müdafiəsinin vacib elemnetləridir. Burada ölkəmizdə realizə onun sosial proqramlar və xidmətlər təhlil olunmuşdur | 5 |
| 15 | ***Sosial siyasət***<br>Sosial işin məqsədi əhalinin sosial rifahıdır. Rifahı təmin etmək üçün müvafiq tələblərə uyğun sosial siyasət hazırlanmalıdır. Sosial siyasət fənni sosial ədaləti izah edir, onun təmin olunması üçün atılacaq addımları əks etdirir. | 5 |
| 16 | ***Fərdlər, qruplar və ailələrlə sosial iş***<br>Sosial işçilər əhalinin müxtəlif qrupları ilə işləyir. Bu fənn onlarla işin üsullarını, müdaxilə strategiyalarını, xüsusiyyətləriniözündəcəmləşdirmişdir. Sosial iş ailəni uşaqlarınsağlam inkişafı və rifahı üçün ən uğurlu yer qəbul edir və bu fənni tədris edərək ailələrin möhkəmləndirilməsi və onların problemlərinin həlli yollarından bəhs edir. | 6 |
| 17 | ***Defektologiya***<br>Defektologiya (zehni və (və ya) fiziki məhdudiyyətli uşaqların inkişafının psixofiziki xüsusiyyətləri, onların təhsil və tərbiyəsi qanunlarını öyrənir..Sosial işçilər əhalinin məhz belə həssas qrupları ilə işin təşkili ilə məşğul olurlar. Bu əhalin qrupunun sosial rifahının təmin olunması, onların problemlərinin müəyyən edilməsi və onlara müvafiq yardımın təyin edilməsi defektologiya tərəfindən öyrənilir.. | 6 |
| 18 | ***Sosial işdə tədqiqat metodları***<br>Bu fənn sosioloji tədqiqatın strukturu və təşkili, onun proqramı və işçi planı, ilkin informasiyanın toplanılması metodları, empirik məlumatların emalı, təhlili və ümumiləşdirilməsi haqqında bütöv, sistemli təsəvvürə malik olmaq üçün metodoloji və metodiki biliklərə yiyələnməyi öyrədir. Tədrisin nəticəsində tələbələr etibarlı və mötəbər empirik nəticələrin əldə edilməsi üçün tədqiqat metodologiyasının və metodikasının əsaslarını mənimsəməli, bu sahədəki problemlər haqqında təsəvvürə malik olmalı, peşəkar sosial işçi-tədqiqatçının peşə vərdişlərinə yiyələnməlidirlər | 9 |
| 19 | ***Psixi sağlamlıq***<br>Bu fənn psixi sağlamlıq, onun meyarları,profilaktikası və dəstəklənməsi barədə məlumatları əhatə edir. Burada sağlam davranış nəzəriyyələri təhlil edilir.Tələbələrin müxtəlif qruplarla işləyərkən onların psixi sağlamlıq vəziyyətini müəyyən etməyi, müvafiq müdaxilə planı hazırlamağı öyrənirlər. | 6 |

| | | |
|---|---|---|
| 20 | ***Azərbaycanda sosial yardım sistemi***<br>Sosial yardım anlayışı izah edilir, onun nğvləri və formaları barədə izah verilir. Tələbələrə Azərbaycanda tətbiq edilən yardım növləri təqdim edilir. Tələbələr müavinət və pensiyaların necə formalaşdığını, kimə təyin edildiyini və necə hesablandığını öyrənirlər. | 6 |
| 21 | ***Qloballaşma və beynəlxalq sosial iş***<br>Bu fənn müxtəlif ölkələrin sosial siyasətini araşdırı. Müxtəlif sosial müdafiə modellləri təhlil edilir. Müxtəlif dövlətlərin sosial yardım əsnasında əməkdaşlığı, beynəlxalq rifah qanunvericliyi və beynəlxalq təşkialtlrın fəaliyyəti şərh olunur. Qloballaşmanın əhalinin rifahına təsiri və onun mübət və mənfi meyilləri müəyyən edilir. | 5 |
| 22 | ***Sosial psixologiya***<br>Sosial psixologiya başqa insanların mövcudluğunun bizim fikir və düşüncələrimizə, hiss və davranışımıza necə təsir etdiyini öyrənir. Bu bilik sahəsi həm sosiologiya, həm də ümumi psixologiya ilə sıx bağlıdır. Sosial psixologiya əsasən sosial davranışı, davranışın sosial mühitdə təzahür edən xarici tərəflərini öyrənsə də, bu sahənin insanların şəxsi həyatlarına tətbiq imkanları çox genişdir. Bu kurs sosial psixologiyanın – aqressiya, prososial davranış, sosial təsir, sosial “Mən”, qrup prosesləri kimi əsas mövzularını əhatə edir. | 6 |
| 23 | ***Sosial pedaqogika***<br>Bu fənn təhsil və tərbiyənin sosial pedaqoji məsələlərinin, sosiallaşma prosesinin təhlili və şəxsiyyətin fomalaşması prosesinin intensivləşdirilməsi, kollektivin sosial-pedaqoji problemləri, xüsusilə müxtəlif inkişaf mərhələlərində tərbiyə işinin xüsusiyyətləri, ünsiyyət və asudə vaxt məsələləri, ailə tərbiyəsinin sosial-pedaqoji məsələləri, sosial tərbiyənin nəzəriyyəsi və metodikası kimi xüsusi aktuallıq kəsb edən problemlərin öyrənilməsi məsələlərini izah edir. Kursun tədris olunması məqsədi - tələbələrin təlimə münasibətinin formalaşmasında sosial-pedaqoji amillərin rolu; ümumi və peşə təhsilinin bəzi sosial-pedaqoji məsələləri; qrupun sosial-pedaqoji xarakteristikası və təlim prosesində pedaqoji korreksiya işinin xüsusiyyətləri; ali təhsilin sosial-pedaqoji məsələləri; tələbə müstəqil işlərinin vacibliyi; tərbiyənin sosiologiyası və sosial pedaqogikada tərbiyə məsələləri; sosial tərbiyənin istiqamətləri: problemlər və vəzifələr; uşaqların tipologiyası; sosial tərbiyə məsələləri və onun idarə olunması; sosial tərbiyə prosesinin optimallaşdırılması: dolayı təsir vasitələri və s. kimi məsələlərin öyrənilməsidir. | 5 |
| 24 | ***Keys menecment***<br>Sosial işdə keys menecment peşəkar sosial işçinin, lazım olduqda, kliyentin və onun ailəsinin ehtiyaclarını qiymətləndirməsi və əlaqələndirməsi, izləməsi, qiymətləndirməsi və müvəkkillik etdiyi xidmət təqdim etmə üsuludur. Peşəkar sosial işçi keys menecmentin əsas təminatçısıdır. Sosial işdə keys menecment digər sahələrdən fərqli olaraq, fərdi kliyentinbiopsixososial vəziyyətinə, həm də işin idarə olunduğu sosial sistemin vəziyyətinə aiddir. Sosial işdə keys menecment həm mikro, həm də makro xarakterlidir: müdaxilə həm klieynt, həm də sistem səviyyəsində baş verir. Sosial işçidən kliyent ilə terapevtik əlaqəni inkişaf etdirməsi və davam etdirməsini tələb edir, bu da kliyenti lazımi xidmətlər, resurslar və imkanlar ilə təmin edən sistemlərlə əlaqələndirməni əhatə edir. | 6 |

| | | |
|---|---|---|
| 25 | ***Sosial işdə idarəetmə***<br>İnsanlara xidmət təşkilatlarında inzibati və idarəetmə vəzifələri çox vaxt üst-üstə düşür və hər iki sahədən də bacarıq tələb olunur və buna görə də hər bir konsepsiyanın nədən qaynaqlandığını aydın şəkildə anlamaq vacibdir. Burada sosial iş menecerləri və idarəçilərinin əsas rolu və məsuliyyətləri haqqında geniş məlumat təqdim edilmişidrş Sosial agentliklərin idarə edilməsi, onların fəaliyyətinin tənzimlənməsi qaydaları və yolları şərh edilir. | 5 |
| 26 | ***Mülki müdafiə***<br>Bu fənn Azərbaycan Respublikasının fövqəladə halların idarə olunması, fövqəladə halların xarakteristikasını, fövqəladə hallardan əsas müdafiə üsullarını və vasitələri, fövqəladə hallar zamanı yaranmış şəraitinin qiymətləndirməsi, özünə və digər şəxslərə yardım etməyi, istehsalat proseslərində mülki müdafiə planının hazırlanması kimi məsələlərin həllərini əhatəedir. | 3 |
| 27–34 | **Ali təhsil müəssisəsi tərəfindən təyin edilən fənlər** | **60** |
| | **Təcrübə və Buraxılış işi** | |
| 35 | **Təcrübə** | 30 |
| | **CƏMİ AKTS** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlüyanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcəktədrisvə öyrənmə metodlarınaaşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinəyetirilməlidir.
4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunuqiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasınayardım etməlidir.
5.2. Qiymətləndirməüsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).
5.3. Qiymətləndirməüsullarıinnovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirməüsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.
5.4. Tədris prosesində fərqli qiymətləndirməüsullarından istifadə edilməlidir. Bu üsullartələbəyönümlüyanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionunqiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:** sadalanan üsullarfənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.
5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.
5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizmproblemini anlamaq öyrədilir. Onlar intellektual əməyinəqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusununhazırlanmasıali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir.Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

-sosial iş təhsili proqramının tədrisi, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisələrinin spesifik infrastruktura malik olmasını zəruri edir. İlk növbədə sosial iş təhsilini həyata keçirən təhsil müəssisələrində sosial iş ixtisasının xarakterinə uyğun olaraq dərslərin xüsusi keys nümunələri ilə izahı üçün müxtəlif dərs formalarından istifadənin əlçatanlığını təmin etmək məqsədilə proyektorlu auditoriyaların olmasını zəruri edir.

-sosial iş təhsilini həyata keçirən təhsil müəssisələrində bu sahə üzrə təhsil alan tələbələrin sosial tədqiqat bacarıqlarını mənimsəməsi, müvafiq vərdişlərə yiyələnmələri üçün sosial tədqiqatın nəticələrinin təhlili və ölçmənin düzgün aparılması yollarını öyrətmək məqsədilə təkmil sosial tədqiqat laboratoriyasına ehtiyac var.

- sosial tədqiqat nəticələrini emal etmək üçün kompyuterlərlə təchiz edilmiş xüsusi auditoriyalar təmin olunmalıdır.

- sosial iş təhsili zamanı sahə təcrübəsinin əhəmiyyətini nəzərə alaraq müvafiq ixtisas üzrə təhsil təqdim edən təhsil müəssisələri və sosial xidmət göstərən müəssisələrin əməkdaşlığı, onların maddi-texniki bazasının istifadə dövriyyəsinə cəlb olunması zəruridir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsivətəcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasınauyğundigər şirkət/müəssisə, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. Təcrübənin qiymətləndirilməsi tələbənin keçdiyi təcrübə haqqında hazırladığı hesabatın komissiya qarşısında təqdimatı əsasında aparılır. Komissiya tələbənin təcrübə keçdiyi şirkət/müəssisə və təhsil aldığı fakültənin mütəxəssislərinin iştirakı ilə formalaşır.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. "Sosial iş" ixtisası üzrə Təhsil Proqramın məzunları Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun yerli strukturlarında, QHT sektorunda, "DOST" mərkəzində, yerli İcra Hakimiyyəti orqanlarında, Səhiyyə sistemində, AR miqrasiya idarəsində, bələdiyyə sistemində işləyə bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. "Sosial iş" ixtisası üzrə Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, Gənclərlə sosial iş, Magistr proqramlarında təhsilini davam etdirə bilər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**RAZILAŞDIRILMIŞDIR:**
Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

_______________Yaqub Piriyev

"28" 08 _______2020-ci il

Səhiyyə, rifah və xidmət, Əsas (baza ali) tibb təhsili ixtisasları ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

_______________prof. Gəray Gəraybəyli

"27" 08 _______2020-ci il

Əlavə 1

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənnüzrəgözləniləntəlimnəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsisadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1 – İxtisas üzrə Azərbaycan və xarici dillərdə işgüzar və akademik kommunikasiya yaradır, məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən edir, müvafiq məlumatı təhlil edir, ümumiləşdirir və tədqim edir, sahə və laboratoriya şəraitində aparılan tədqiqatlardan əldə edilmiş nəticələrin işlənilməsi və təqdim olunmasını həyata keçirir |
| PTN 2 – Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli bilikləri, dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərini, beynəlxalq arenada Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir |
| PTN 3 – Fəaliyyətində sosial və ekoloji məsuliyyəti, eləcə də vətəndaş şüuru və etik yanaşmanı, həmçinin keyfiyyətə üstünlük vermək bacarığını, bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığını nümayiş etdirir |
| PTN 4 – Müxtəlif hadisələrin izah olunmasında, tədqiq edilməsində, sosial işin müvafiq istiqamətləri üzrə nəzəri biliklərə əsaslanaraq, müasir yanaşmaları və metodları tətbiq edir |
| PTN 5 –Kliyentlərlə müvafiq sosial iş prosesinin təşkili haqqında müasir bilikləri nümayiş etdirir |
| PTN 6 – Sosial problemlərin təsnifatı, yaratdığı fəsadlar, onların həlli üzrə təkliflər təqdim edə bilir. |
| PTN 7 – Sosial problemləri tədqiq edə, onların arasında olan əlaqəni aşkara edə, tədqiqatın nəticələrini ümumiləşdirə bilir |
| PTN 8 –Peşəkar standart və nromalara, beynəlxalq sosial iş etik kodeks əsasında fəaliyyət göstərir |
| PTN 9– Yeni ideyaları irəli sürür, fundamental problemləri üzə çıxarır, tədqiqatın vəzifələri və metodlarını müəyyən edir, (müşahidə, qeydə alınma, identifikasiya, müqayisəli təhlil, təsnifləşdirmə, sosial həsas vəziyyətini müəyyən etmək və s. metodları) tətbiq edir. |
| PTN 10– Fövqəladə hallar zamanı mülki müdafiə üzrə maarifləndirmə, fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkili və həyata keçirilməsi haqqında bilikləri nümayiş etdirir, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edir |

| “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Azərbaycantarixinədairfaktlarışərhedir |
| FTN 2 – MüasirdünyadaAzərbaycandövlətininyeri və rolunusistemlitəhliledir |
| FTN 3 – Azərbaycanınmüasirdövlətçilikənənələrininyaranması, formalaşması və inkişafınadairtəqdimatlarhazırlayır |
| FTN 4 – MüasirAzərbaycandövlətçiliyininformalaşmasındasiyasiamillərinrolunutəhliledir |
| FTN 5 - MüasirAzərbaycandövlətçiliyininformalaşmasındaiqtasidiamillərinrolunutəhliledir |
| FTN 6 - MüasirAzərbaycandövlətçiliyininformalaşmasındamədəniamillərinrolunuşərhedir |

| “Azərbaycan dili və nitq mədəniyyəti”fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 – Azərbaycan dilində ixtisas üzrə elmi məlumatları təhlil edir |
| FTN 2 - Azərbaycan dilində ixtisas üzrə yazılı təqdimatlar hazırlayır |
| FTN 3 - Azərbaycan dilində ixtisas üzrə şifahi təqdimatlar hazırlayır |
| FTN 4 - Azərbaycan dilində akademik natiqlik bacarığını nümayiş etdirir |
| FTN 5 - Azərbaycan dilində yazılı şəkildə işgüzar kommunikasiya yaradır |
| FTN 6 – Azərbaycandilindəşifahişəkildəişgüzar kommunikasiya yaradır |

| “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisası üzrə xarici dillərdən birində oxuduğu elmi məqalənin xülasəsini hazırlayır |
| FTN 2 - İxtisası üzrə oxuduğu elmi məqalələri xarici dillərdən birində təhlil edir |
| FTN 3 – İxtisası üzrə elmi məlumatları xarici dillərdən birində şifahi ifadə edir |
| FTN 4 - İxtisası üzrə xarici dillərdən birində yazılı təqdimatlar hazırlayır |
| FTN 5 - Xarici dillərdən birində yazılı şəkildə işgüzar kommunikasiya yaradır |
| FTN 6 - Xarici dillərdən birində şifahi şəkildə işgüzar kommunikasiya yaradır |

| “Sosial işə giriş” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 – Sosial işin ilkin anlayışlarını, kateqoriyalarını, prinsiplərini bilir |
| FTN 2 – Ixtisasın mahiyyətini izah edir |
| FTN 3 – ixtisasın məqsəd və vəzifələrini dərk edir |
| FTN 4 – Ixtisasın yaranması və formalaşması tarixi ilə bağlı bilgiləri mənimsəmişdir |
| FTN 5 – sosial işin peşə istiqamətlərini müəyyən edə bilir |
| FTN 6 – sosial işçinin fəaliyyət istiqamətlərinə bələddir |

| “Sosial işdə etik prinsiplər” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 – Sosial işin dəyərlərini izah edir |
| FTN 2 – Peşəkar sosial işçinin bacarıqlarını mənimsəmişdir |

| |
|---|
| FTN 3 – Peşəkarın cəmiyyət, şəxslər və peşə qarşısında öhdəliklərini bilir |
| FTN 4 – Sosial xidmət sferasında yaranan etik dilemmalar və problemlərin öhdəsindən gələ bilir |
| FTN 5 –Peşə standartları və etik kodeksə uyğun fəaliyyət göstərmək vərdişlərini əldə edir |
| FTN 6 – sosial işçi-kliyent münasibətlərinə müvafiq tələblərə bələddir |
| **"Sosial işin nəzəriyyə və təcrübəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1 – fəaliyyətində elmi əsaslara dəlalət edir |
| FTN 2 – insan davranışının səbəblərini müəyyənləşdirə və şərh edə bilir |
| FTN 3 – konkret porblemlərləişləyərkən tətbiq olunan yardım modellərini tətbiq edə bilir |
| FTN 4 – ixtisas üzrə fərqli nəzəriyyələri mənimsəmişdir və onları təhlil edə bilir |
| FTN 5 – nəzəriyyə və təcrübəni əlaqələndirə bilir. |
| FTN 6 – müvafiq nəzəriyyələri təcrübəyə tətbiq edə bilir. |

| **"Sosial proqramlar və xidmətlər" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – ölkənin sosial müdafiə sisteminin tərkib hissələrini tanıyır |
| FTN 2 – Sosialproqramınnəolduğunubilir |
| FTN 3 – Sosial proqramlarınhazırlanmasınınxüsusuiyyətləriilətanışdır |
| FTN 4 – Sosial xidmətlərin kimə hansı meyarlarla təqdim edildiyini bilir |
| FTN 5 – Respublikanın sosial xidmət müəsisələri və onların fəaliyyətini bilir |
| FTN 6 – sosial proqram və xidmətlər sahəsində beynəlxalq təcrübəni mənimsəmişdir |

| **"Sosial siyasət" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1- Dövlətin Sosial siyasətinin necə hazırladığını bilir |
| FTN 2- Sosial siyasətə təsir edən amillərdən xəbərdardır |
| FTN 3- Müxtəlif sosial siyasət modelləri ilə tanışdır |
| FTN 4- sosial siyasətin tərkib hissələri ilə tanışdır |
| FTN 5- sosial dövlət konsepsiyasını mənimsəmişdir |
| FTN 6-sosial siyasət üzrə normativ hüquqi bazaya bələddir |

| **"Fərdlər, qruplar və ailələrlə sosial iş" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – Mikro sosial işin xüsusiyyətlərinə yiyələnmişdir |
| FTN 2 –icmalarla sosial iş vərdişləri əldə etmişdir |
| FTN 3 –müxtəlif risk qruplarını fərqləndirir və onlarla işləməyi bacarır |
| FTN 4 –terapevtik qrupları fasilitasiya edir |
| FTN 5 –ailə böhranları zamanı müdaxilə strategiyasını hazırlamağı bacarır |
| FTN 6 –ailə problemlərini mediasiya çərçivəsində tənzimləməyi bacarır |
| **"Sosial işdə tədqiqat metodları" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1 - Sosial hadisələr arasında korrelyasiya əlaqələrini müəyyən edə bilir |
| FTN 2 – Sosial tədqiqatın metodlarını mənimsəyir |
| FTN 3 – Sosial problemlərə təsir edəcək amilləri, onun həlli yollarını aşkar edə bilir |
| FTN 4 – Cəmiyyətdə olan dinamika ilə bağlı proqnoz verə bilir |

| | |
|---|---|
| FTN 5 – Tədqiqat əsasında yeni nəzəriyyənin formalaşmasınatöfhə verəbilir |
| FTN 6 – Sosial məlumatların ölçülməsini və onların təhlil üsullarını bilir |

| **“Azərabaycanda sosial yardım sistemi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1- sosial yardım sistemini təşkil edən tərkib hissələri ilə tanışdır. |
| FTN 2- müxtəlif sosial yardım formalarının təyini və hesablanması qaydasını bilir |
| FTN 3-dünya sosial yardım modellərini müqayisəli təhlil edir |
| FTN 4- Azərbaycanda sosial yardımla bağlı hüquqi bazanı mənimsəmişdir |
| FTN 5-sosial yardım sisteminə təsir edən amilləri müəyyən edə bilir |
| FTN 6- Sosial yardım növlərini, formalarını bilir. |

| **“Defektologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 –defektologiyanın elm kimi mahiyyəti, predmeti və prinsiplərinii bilir |
| FTN 2 – Defektologiyanın metodları ilə tanışdır, təcrübədə tətbiq edə bilir |
| FTN 3 –Psixofizioloji inkişaf xüsusiyyətləri barədə məlumatlıdır |
| FTN 4 – surdopedaqogika, tiflopedaqogika, loqopediyanın spesifikasını bilir |
| FTN 5 – məhdudiyyəti olan uşaqlarla iş bacarıqlarına malikdir |
| FTN 6 – defektologiya ilə müvafiq sosial xidməti əlaqələndirə bilər |

| **“Keys menecment” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – İlkin qiymətləndirməni aparmağı bacarır |
| FTN 2 – Müdaxilənin bütün mərhələlərini mənimsəmişdir |
| FTN 3 – Fərdi müdaxilə və qayğı planını hazırlaya bilir |
| FTN 4 – Keysləri idarə etməyi bacarır |
| FTN 5 –praktik sosial iş vərdişlərini bilir |
| FTN 6 –sosial müvəkkilliyi və qeydiyyatı aparmağı bacarır |

| **“Qloballaşma və beynəlxalq sosial iş” fənni üzrə təlim nəticələri” (FTN)** |
|---|
| FTN 1 –.Beynəlxalq sosial iş təcrübəsi ilə tanışdır |
| FTN 2 – qloballaşamanın sosial işə təsirini şərh edir |
| FTN 3 – Beynəlxalq sosial iş standart və normalarını bilir |
| FTN 4 – əhalininmüxtəlifqruplarınınsosialmüdafiəsiləbağlıbeynəlxalqöhdəliklər və konvensiyalarlatanışdır |
| FTN 5 – qlobalproblemlərinsosialişçərçivəsindəhəlli və buistiqamətdəəməkdaşlıqistiqamətlərinibilir |
| FTN 6 – Sosial müdafiənihəyatakeçirənbeynəlxalqtəşkilatlarınmissiya və fəaliyyətistiqamətləriilətanışdır |

| **“Sosial işdə idarəetmə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – Sosial yardım agentliyini idarəedilməsi prinsip, qayda və metodlarını bilir |

| |
|---|
| FTN 2 –idarətemədəriksləringiymətləndirilməsi və onların idarəedilməsini bacarır |
| FTN 3 –Sosial iş həyata keçirən QHT-nin fəaliyyətini tənzimləyə və idarə edə bilir |
| FTN 4 –Sosial layihələrin idarə edilməsi və realizəsini bacarır |
| FTN 5 –sosial problemlərin fasilitasiyasını həyata keçirir |
| FTN 6 –Supervayzer rolunu dərk edir, superviziyaedilənlərin fəaliyyətinə nəzarət edir, onu qiymətləndirirvə düzgün superviziya prosesi təşkil edir |

| **"Mülki müdafiə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – Mülki müdafiənin əsasları, qüvvə və vasitələrini bilməlidir. |
| FTN 2 – Fövqəladə hallar və onların xarakteristikalarını bilməlidir. |
| FTN 3 – Fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsihaqqında biliklərə yiyələnməlidir. |
| FTN 4 – Fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarmalıdır. |
| FTN 5 – Fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndirilməsini bilməlidir. |
| FTN 6 – Fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkili və həyata keçirilməsi haqqında biliyə malik olmalıdır. |

| **"Sosial işdə riyazi metodlar" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – Sosial məlumatların ölçülməsində riyazi metodları tətbiq edə bilir |
| FTN 2 – sosial məlumatların kodlaşdırılması və ifadəsində riyazi metodlardan istifadə edə bilir |
| FTN 3 – sosial proqnozlaşdırmada riyazi metodları tətbiq edə bilir |
| FTN 4 –tədqiqatın nəticələrini riyazi üsulla emal edə bilir |
| FTN 5 – sosial məlumatların əyani təhlilini həyata keçirmək üçün riyazi üsullardan istifadə edə bilir |
| FTN 6 – istifadə olunan metodların düzgünlüyünü və əsaslılığını isbat edə bilir |

| **"Sosial statistika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 – sosial problemlərin müxtəlifliyini və çətin həyat şəraitini nəzərə alaraq qiymətləndirməni apara bilir |
| FTN 2 – sosial xidmətlərin keyfiyyət qiymətləndirməsi və ölçmə vərdişlərini bilir |
| FTN 3 – informasiyanı işlənməsində müasir axtarış sistemlərindən istifadə edə bilir |
| FTN 4 –informasiyanın tənqidi qiymətləndirmə metodikasını bilir |
| FTN 5 – Hadisələrin sosial statistikanı normativlərə uyğun tərtib edə bilir |
| FTN 6 – sosial xidmət statistikasını hazırlaya bilir |

| **"Neyrobiologiya"fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - başbeyin və sinirsistemininfəaliyyətprinsiplərinibilir |
| FTN 2 – beyin və sinirsistemifəaliyyətinindavranışlaəlaqəsibarədəməlumatlıdır |
| FTN 3 – psixipozuntular və beyinzədələriarasındakıəlaqənimüəyyənedəbilir |
| FTN 4 – genlərinsinirsisteminə və onuninkişafınatəsirlərinəbələddir |
| FTN 5 - yaşlaəlaqədarolaraqbeyninişindəkidəyişikliklərləəlaqəliproblemləritəhliledir |
| FTN 6 - qərarqəbulununneyrobiolojiəsaslarınımənimsəmişdir |

| **"İnformatika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|

| |
|---|
| FTN 1 – Müxtəlif qovluqlarda, axtarış sistemlərində, iyerarxik strukturlarda məlumat axtarmağı bacarır |
| FTN 2 – Müxtəlif cihazlarla işləmə bacarıqlarını mənimsəmişdir |
| FTN 3 – Məlumatı müxtəlif şəkillərdə təqdim edə bilir |
| FTN 4 – İnformasiyanı elektron formata keçirə bilir, onun üzərində işləmə qabiliyyətləri formalaşmışdır |
| FTN 5 – müxtəlif sənədlərlə işləyərkən informasiya və telekommunikasiya texnologiyalarını tətbiq etmək bacarır |
| FTN 6 – ixtisasla bağlı tədqiqatların nəticələrini emal etmək səriştəsinə malik olmaq üçün informasiya texnologiyaları barədə təməl biliklərə sahibdir |

**Əlavə 2**

**Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi**

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 |
| Humanitar fənlər | Azərbaycanın tarixi | | X | | | | | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | |
| Seçmə fənn | Müasir təbiətşünaslıq konsepsiyası | | | X | | | | | | | |
| | Müasir dövrün sosial problemləri | | | | | | X | | | | |
| | Genderə giriş | | | | | | | | X | | |
| | Multikulturalizmə giriş | | X | | | | X | | | | |
| | Fəlsəfə | | | | | X | X | X | | X | |
| | Məntiq | | | | | | | X | | X | |
| | Politologiya | | X | | | | | | | | |
| Seçmə fənn | İqtisadiyyat | | X | | | | | | | | |
| | AR Konstitusi. və hüququn əsasları | | X | | | | | | | | |
| | İnsan hüquqları | | X | | | | | | | | |
| İxtisas fənləri | *Sosial işdə riyazi metodlar* | | | | | | | X | | | |
| | *İnformatika* | | | | | | | | | X | |
| | *Sosiologiya* | | | | | X | X | X | | | |
| | *Psixologiya* | | | | | | X | X | | | |
| | *Neyrobiologiya* | | | | | X | | | | | |
| | *Sosial işə giriş* | | | X | X | | | | | X | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *Sosial iş təcrübəsində etik prinsiplər* | | | X | | X | | | X | | |
| | *Sosial işin nəzəriyyəsi və təcrübəsi* | | | X | X | X | X | X | | X | |
| | *Sosial statistika* | | | | | | | X | | | |
| | *Sosial proqramlar və xidmətlər* | | | | | X | X | | | X | |
| | *Sosial siyasət* | | X | | | X | X | | | | |
| | *Fərdlər, qruplar və ailələrlə sosial iş* | | | | | X | X | | | | |
| | *Defektologiya* | | | | | X | | X | | | |
| | *Sosial işdə tədqiqat metodları* | | | | X | | X | X | | | |
| | *Psixi sağlamlıq* | | | | | X | X | | | | |
| | *Azərbaycanda sosial yardım sistemi* | | X | | | | X | | | | |
| | *Qloballaşma və beynəlxalq sosial iş* | | | | | | | X | X | | |
| | *Sosial psixologiya* | | | | | X | X | X | | X | |
| | *Sosial pedaqogika* | | | | X | | | | | X | |
| | *Keys menecment* | | | | X | X | X | | | X | |
| | *Sosial işdəidarəetmə* | | | X | | | X | | X | | |
| | *Mülkimüdafiə* | | | | | | | | | | X |
| | Seçmə fənlər | | | | X | X | X | X | X | | |
| | Təcrübə | | | X | X | | | | | X | |